**Elmi-pedaqoji kadr hazırlığı şöbəsinin 2015-ci təqvim ilindəki uğurları**

Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli sərəncamı yaradılan Təhsil Problemləri İnstitutunda (AR TPİ) keçmiş aspirantura şöbəsinin bazasında yeni yaradılmış elmi-pedaqoji kadrların hazırlanması şöbəsi, 2014-cü ildə İnstitutda aparılan struktur dəyişikliyindən sonra şöbənin adı redaktə olunur və Elmi-pedaqoji kadr hazılığı şöbəsi kimi fəaliyyətini uğurla davam etdirir. Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi-pedaqoji kadr hazırlığı şöbəsi institutun struktur vahidi olub, onun nizamnaməsində formalaşmış ümumi və öz əsasnaməsinə uyğun vəzifələrin yerinə yetirilməsində mühüm rol oynayır. O öz işini «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununa (2009-cu il) əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 01 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş Doktoranturaların yaradılması və doktoranturaya qəbul qaydalarına, İnstitutun Nizamnaməsi, şöbənin əsasnaməsi və illik fəaliyyət planına əsasən qurur.

Şöbə işini institutun nəzdində olan bütün şöbələrin müvafiq əməkdaşlıqları, elmi müxbirləri, doktorant və dissertantları ilə əlaqələndirir, fəlsəfə və elmlər doktoru proqramları üzrə doktorant və dissertant hazırlığına rəhbərlik edir.

AR TPİ-nin struktur şöbəsi olaraq ölkənin ali təhsil müəssisələri, AMEA-nın institutları, təhsil mərkəzləri və qurumları ilə yaxın əməkdaşlıq edir. Yerli və xarici (dövlət və özəl olmaqla) təhsil sisteminin idarəetmə strukturlarının doktorantura şöbələri ilə əməkdaşlığını qurur, müvafiq sahə üzrə təhsil sahəsində maarifləndirmə mexanizmini hazırlayır. Beynəlxalq əməkdaşlığa əsasən universitetlərarası və qurumlararası ikitərəfli razılaşmalar, anlaşma memorandumları, əməkdaşlıq protokolları və digər bu kimi hüquqi vasitələr çərçivəsində həyata keçirilir.

Doktorant və dissertantların səmərəli fəaliyyət göstərmələrinə elmi rəhbərlər faydalı məsləhətləri ilə yaxından kömək göstərirlər. Xüsusilə institutun professorlarından Y.Ş. Kərimov, Ş.A. Mikayılov, V.C. Xəlilov, A.N. Abbasov, P.B. Əliyev, İ.H. Cəbrayılov, R.İ. Əliyev, R.L. Hüseynzadə; F.B. Sadıqov, M.C. Mahmudov, F.A. Hüseynov, D.Ə. İsmayilova, Bakı Dövlət Universitetinin professorlarından H.Ə. Əlizadə, L.N. Qasımova, M.Ş. Babayev, Ə.Ə. Əliyev, K.İ. Xudaverdiyev, A.C. Hacıyev; R.L.Sultanov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorlarından F.A. Rüstəmov, M.S. Cəbrayılov, M.İ. Murquzov, Ə.T. Baxşəliyev, S.M. Quliyev, S.S. Həmidov, A.S. Adıgözəlov, Q.E. Əzimov, M.M. Əmirov; M.İ. İlyasov,

Q.Ş. Kazımov, M.M. Abbasov, Azərbaycan Milli Elmlər Akademiyasından akademik R.M. Əliquliyev, E.K. Əlizadə; Rusiya Dövlət Təhsil Akademiyasından akademiklər Ş.A. Amonaşvili, H.H. Əhmədovun və onlarla fəlsəfə doktorlarının yetirmələri dissertasiyalarını vaxtında və uğurla müdafiə etmiş və qalanlarıda tədqiqatlarını davam edirlər.

Hazırda institutda çalışan elmi işçilərin əsas hissəsi onun aspiranturasının yetişdirməsidirlər. İnstitutun hazırladığı yüksək ixtisaslı kadrlar eyni zamanda respublikamızın müxtəlif pedaqoji və elmi müəssisələrində, eləcə də Azərbaycan Respublikasının Təhsil Nazirliyində çalışırlar.

İnstitutun yetirmələri respublikanın müxtəlif elmi və pedaqoji təhsil müəssisələrində elmi işçi, baş müəllim, dosent, professor, kafedra müdiri, prorektor və rektor kimi fəaliyyət göstərirlər.

Bu ilin sonuna institumuzda fəlsəfə və elmlər doktoru proqramı üzrə cəmi 114 nəfər doktorant və dissertant təhsil alır. Bunlardan fəlsəfə doktoru proqramı üzrə büdcə hesabına 10 nəfər əyani doktorant, 22 nəfər qiyabi doktorant və 30 nəfər dissertant təhsil alır. Ödənişli əsaslarla isə 4 nəfər qiyabi və 12 nəfər dissertant təhsil alır. Elmlər doktoru proqramı üzrə büdcə hesabına 5 nəfər əyani doktorant, 10 nəfər qiyabi, 5 nəfər dissertant təhsil alır. Ödənişli əsaslarla isə 2 nəfər qiyabi doktorant, 5 nəfər dissertant təhsil alır. Fəlsəfə doktoru proqramı üzrə 9 nəfər xarici ölkə vətəndaşı təhsil alır, bunlardan 5 nəfəri əyani, 4 nəfəri isə qiyabidir. Bundan başqa il ərzində onlarla doktorant və dissertant (bunlardan bu ilin məzunları olan 1 nəfər elmlər elmlər doktoru, 7 nəfər fəlsəfə doktoru, 2 nəfər fəlsəfə doktoru xarici ölkə vətəndaşı) təhsil müddətindən xeyli əvvəl dissertasiyalarını tamamlayaraq müdafiə şuralarına təqdim etmiş, müdafiə etmiş və diplomlarını almışlar. Həmçinin hazırda 1 nəfər (yaşı 50-dən aşağı) elmlər doktoru proqramı, 2 nəfər isə (yaşı 35-dən aşağı) fəlsəfə doktoru proqramı üzrə təhsillərini vaxtından əvvəl bitirib, dissertasiyaları açıq müdafiəyə təqdim olunub.

Hesabat ilində institut elmi-pedaqoji kadr hazırlığı sahəsində də səmərəli fəaliyyət göstərmişdir. Belə ki, 2015-ci ildə elmlər doktoru proqramı üzrə 5 nəfər doktoranturaya, bunlardan 1-i ödənişli əsaslarla (onlardan 3-ü əyani, 2-i qiyabi); 9 nəfər fəlsəfə doktoru proqramı üzrə doktoranturaya, bunlardan 1-i ödənişli əsaslarla (onlardan 4-ü əyani, 5-i qiyabi); 10 nəfər fəlsəfə doktoru proqramı üzrə dissertanturaya, bunlardan 3-ü ödənişli əsaslarla; 1 nəfər xarici ölkə vətəndaşı fəlsəfə doktoru proqramı üzrə əyani doktoranturaya

qəbul olunmuşdur. Onlara 30 nəfər elmlər doktoru, 5 nəfər akademik və onlarla fəlsəfə doktorları rəhbərlik edir.

Doktorantlarımız öz tədqiqatlarını İnternet vasitəsilə dünyaya təqdim edə bilirlər. Onlar xarici dillərə yiyələnərək yaxın və uzaq xarici ölkələrdə simpozium və konfranslarda Azərbaycan xalqını, onun elminin inkişafını, milli-mənəvi dəyərlərini, adət-ənənələrinin xüsusiyyətlərini şərəflə təqdim və təbliğ edirlər.

2015-16-ci tədris ilində fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul, dissertanturaya təhkim olunma və elmlər doktoru proqramı üzrə doktoranturaya qəbulun nəticələri 22 plan yeri ayrılıb, bu yererə 22 nəfər qəbul olub, vakant yer qalmayıb. Ümumilikdə büdcə hesabına 6 yer təqaüdlı, 6 yer isə ödənişli olub.

Fəlsəfə doktoru proqramı üzrə təhsil alan doktorantlardan 2015-ci ilin dekabr ayinda təhsil müddəti başa çatanlar:

1.Məmmədova Məhbubə Ərzuman qızı - ***müdafiəyə təqdim edib***

2.Əhmədova Azadə Məmmədağa qızı - *tamamlayıb*

3.Əliyeva Afaq Asif qızı – vaxtı bitib.

4.Əsədova Nərminə Oqtay qızı – vaxtı bitib.

5.Abdurrəhimova Könül Fazil qızı – ***12.01.2016-ci il tarixdə müdafiə edib.***

6.Əmrəliyeva İradə Böyükağa qızı – ***27.10.2015-ci il tarixdə müdafiə edib.***

7. İsgəndərova Sevda Xanməmməd qızı – ***müdafiə şurasına təqdim edib.***

8.Əliyeva Şəymən Ayət qızı – vaxtı bitib

9.Fəttayev Fəttah Müştəba oğlu – vaxtı bitib

10.Verdiyeva Tünzalə Müslüm qızı – *tamamlayıb*

11.Əlixanova Gülnarə Həmzəbəyovna – *tamamlayıb*

12.Babanlı Yusif Məmməd oğlu – ***müdafiə edib, diplom alıb***

13.Şabanı Xuraman Cahıd qızı – vaxtı bitib

14. Rəhimova (Rüstəmova) Gülnar Voroşil qızı – vaxtı bitib

15.Hüseynova Fəridə Məşi qızı – vaxtı bitib.

16. Əhmədxanova Zülfiyyə Rüfət qızı – vaxtı bitib

17.Önəmli Mehmet İzzət oğlu – *tamamlayıb*

18.Bakışlı Fuat – *müdafiəyə buraxılıb*

18. Yücel Savaş Mustafa oğlu – *müdafiəyə buraxılıb*

19. Qarayev Fuad Əbdürrəhman oğlu–(02. 2015) vaxtı bitib

20. Həsənova Samirə Mürvət qızı – vaxtı bitib (07.02.2016)

2016-cı ilin yanvar ayının 7-də fəlsəfə doktoru proqramı üzrə təhsil müddəti başa çatanlar:

1.Zeynalova Nigar Eldar qızı – ***müdafiə edib, diplom alıb***

2.Hüseynova Nərgiz Hüseynağa qızı – *tamamlayıb*

3.İsmayılova Xanım Ramiz qızı – vaxtı bitib

4.Quliyeva Leyla Gəncivan qızı – vaxtı bitib

Fəlsəfə doktoru proqramı üzrə təhsil alan doktorantlardan:Zeynalova Nigar Eldar qızı, Üfüq Sağlam Hasan oğlu, Babanlı Yusif Məmməd oğlu Yücel Savaş Mustafa oğlu, Bakışlı Fuat və dissertantların Əmrəliyeva İradə Məmməd qızı, İskəndərova Könül Yaşar qızı, Abdürrəhimova Könül Fazil qızı, Məmmədova Məhbubə Ərzuman qızı dissertasiyalarını vaxtından əvvəl bitiriblər və müdafiəyə buraxılıblar. 2015-ci il ərzində elmlər doktoru proqramı üzrə təhsil alan doktorantların iki nəfəri təhsillərini vaxtından əvvəl başa çatdırmışlar: Quliyev Dilqəm Qasım oğlu – ***müdafiə şurasına təqdim edib,*** Şirzadova Mehriban Hüseyn qızı – ***müdafiə şurasına təqdim edib.*** 2015-ci ilin dekabr ayinda elmlər doktoru proqramı üzrə təhsil alan əyani doktorant Əmrahlı Lümunət Şəfi qızının təhsil müddəti başa çatmışdır. Əldə etdiyimiz bütün bu uğurlar ölkəmizdə aparılan təhsil islahatının səmərəli nəticələrinin və institut rəhbərliyinin doktorant və dissertant hazırlığına göstərdiyi diqqət və nəticənin bariz nümunəsidir.

**Hümeyir Əhmədov**
Azərbaycan Respublikasının Təhsil Problemləri
İnstitutunun Elmi-pedaqoji kadr hazırlığı şöbəsinin müdiri,
pedaqogika üzrə elmlər doktoru, baş elmi işçi, akademik